

# 2019-cu il Azərbaycan tarixinə islahatlar ili kimi yazılacaq

*İslahatlar müxtəlif dövrlərdə, müxtəlif templə və səmərə ilə həyata keçirilib. Keçənilki prezident seçkilərindən sonra mənim andiçmə mərasimimdəki çıxışımda islahatların yeni mərhələsi elan edildi və biz bu islahatları ardıcıl şəkildə reallaşdırmağa başladıq.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**



**2019-cu il Azərbaycanın siyasi, sosial-iqtisadi və mədəni sahələrdə əldə etdiyi mühüm uğurlarla, beynəlxalq reytinq siyahılarında ön mövqelərdə qərarlaşması ilə yadda qalacaq. Bu dövrdə iqtisadiyyat yüksək templə inkişaf edib. Görülən tədbirlər, aparılan islahatlar, qeyri-neft sektorunun inkişafına verilən dəstək, onun xüsusi çəkisinin artması son nəticədə ölkənin iqtisadi və hərbi gücünü dəfələrlə artırıb.**

Azərbaycanın sürətli inkişafını 2020-ci ilin dövlət büdcəsi də aydın göstərir. Milli Məclisdə son büdcə müzakirələrindən də aydın oldu ki, 2017-ci illə müqayisədə dövlət büdcəsinin xərcləri 60 faizə qədər artıb. Bu, eyni zamanda, ölkə iqtisadiyyatının dayanıqlığının bariz ifadəsidir.

Sosial təminatın daha da yaxşılaşdırılmasını ifadə edən büdcə göstəricilərinin ildən-ilə yaxşılaşdırılması, ölkəmizdə mütərəqqi sosial siyasət həyata keçirilməsi, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə mühüm önəm verilməsi, bir sözlə, dövlət büdcəsinin sosialyönümlü olması təsadüfi deyil. Çünki insanlara maddi-mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin yaradılması Azərbaycan dövlətinin apardığı siyasətin mühüm prinsiplərindəndir.

Bütün bunlar real göstəricilərdə də aydın nəzərə çarpır:

***Cari il ümumi iqtisadi artım 2 faizdən çox olub.***

***Qeyri-neft iqtisadiyyatı təqribən 3,5 faiz artıb.***

***Qeyri-neft sənayesində təxminən 14 faiz artım qeydə alınıb.***

***Kənd təsərrüfatında 7 faizdən çox artım var.***

***Qeyri-neft ixracı təqribən 14-15 faiz yüksəlib.***

***Bu il valyuta ehtiyatları 4,5 milyard dollar artaraq 50 milyard dollara çatıb.***

***Aparılan islahatlar, o cümlədən şəffaflıq sahəsində atılan addımlar ölkəyə əlavə gəlir gətirib. Belə ki, vergi və gömrük orqanları tərəfindən bu il plandan əlavə büdcəyə 1 milyard manat vəsait köçürülüb.***

***Müavinətlər orta hesabla 50 faiz, yaxud da 2 dəfə, minimum əməkhaqqı 2 dəfə, minimum pensiya 70 faizdən çox artırılıb.***

***Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə bu gün Azərbaycan MDB-də birinci yerdədir.***

***Bu il məcburi köçkünlər üçün 5 mindən çox ev və mənzil inşa edilib, 7 mindən çox şəhid ailəsinə dövlət tərəfindən mənzillər, təqribən 6 mindən çox müharibə əlilinə maşınlar verilib.***

Bütün bunlar göstərir ki, əvvəllər olduğu kimi, bu il də Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasi kurs çərçivəsində sosial məsələlərin həlli, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi diqqət mərkəzində saxlanılıb. Başqa sözlə, insanların yaşayış səviyyəsinin yaxşılaşdırılması, maaşların, pensiyaların artırılması və yeni sosial obyektlərin tikintisinə dövlətin sosial siyasətinin prioritet istiqamətlərindən biri kimi xüsusi əhəmiyyət verilib.

## *İslahatlar sahibkarlığın inkişafında önəmli rol oynayır*

Son illərdə Azərbaycanın sosial-iqtisadi inkişafı əksər dünya dövlətlərinin, həmçinin beynəlxalq nüfuzlu təşkilatların diqqətini cəlb edir, ölkəmizin adı müxtəlif reytinq sıralamalarında, bir qayda olaraq, öncül yerlərdə göstərilir. Respublikamızda aparılan islahatlar, həyata keçirilən infrastruktur layihələri və digər zəruri tədbirlər düşünülən strategiyaya əsaslanır, respublikamızın qüdrətinin artırılmasına yönəldilir. Hazırda Azərbaycanda mövcud iqtisadi sərbəstlik, özəl bölmənin inkişafı üçün yaradılan səmərəli şərait, demokratik mühit xarici əməkdaşlıq əlaqələrinin miqyasının genişlənməsinə öz müsbət təsirini göstərir.

Azərbaycanın "Doing Business 2020" reytinqində islahatçı ölkələr arasında ilk iyirmilikdə yer alması da yuxarıda qeyd edilən fikrin bariz ifadəsidir. Dünya Bankı ekspertlərinin fikrincə, respublikamızın belə bir müsbət nəticə əldə etməsi Azərbaycanda 4 sahədə (daşınmaz əmlakın qeydiyyatı, kreditlərin alınması, minoritar investorların müdafiəsi, müqavilə intizamı) bizneslə məşğul olmağın daha da asanlaşması ilə bağlıdır.

Belə bir uğur, həm də Azərbaycan iqtisadiyyatında müsbət meyillərin getdikcə gücləndiyini göstərir. Bu meyillər sosial-iqtisadi sabitliyin təmin olunması, iqtisadi islahatların sistemli şəkildə aparılması, xarici investisiya qoyuluşlarının həcminin artması, tələb olunan miqdarda əcnəbilərə məxsus müəssisələrin yaradılması və s. amillərlə əlaqədardır.

Yeni mərhələnin əsas vəzifəsi isə milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsinə və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasına nail olmaqdan, uzunmüddətli perspektivə ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdən ibarətdir. Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı fərmanlarda, təsdiqlədiyi iqtisadi siyasət sənədlərində bu vəzifənin reallaşması üçün yerinə yetirilməsi zəruri olan tədbirlər müəyyənləşdirilib. Bunlara ölkənin mövcud iqtisadi potensialının gücləndirilməsi və bu potensialın kompleks şəkildə səmərəli reallaşdırılması, o cümlədən, qeyri-neft sektorunun inkişaf etdirilməsi, hər bir regionun potensialından tam və səmərəli yararlanılması, yoxsulluğun azaldılması kimi məsələləri aid etmək olar. Özəl bölmənin inkişafını stimullaşdıran digər məqamlara da diqqət yetirək:







***- elektrik şəbəkəsinə qoşulmaq üçün sifarişlərin elektron sistemi istifadəyə verilib, prosedurların sayı 7-dən 2-yə, bunun üçün tələb edilən vaxt 41 gündən 20 günə endirilib;***

***- daşınmaz əmlakın və kadastr işlərinin qeydiyyatı ilə bağlı problemlər üzrə apelyasiyalar üçün xüsusi müstəqil mexanizmlər yaradılıb, prosedurların sayı 3-dən 1-ə, bunun üçün tələb edilən vaxt 5 gündən 1 günə endirilib;***

***- kredit alınması üçün bütün növ girovlara icazə verilib, yüklənmə müqaviləsində əsas öhdəliyin maksimal məbləğini göstərmək imkanı yaradılıb;***

***- xırda investorların hüquqlarının müdafiəsi gücləndirilib;***

***- sosial sığorta üçün ödəmələrin həcmi 22 faizdən 15 faizə endirilib, ƏDV-nin ödənilməsinin inzibati proseduru təkmilləşdirilib və bu prosedurun elektron formada həyata keçirilməsi reallaşdırılıb.***

***- vergi yükü əhəmiyyətli dərəcədə azaldılıb, mikro və kiçik biznes subyektlərinə əlavə vergi güzəştləri təqdim edilib;***

***- xarici ticarətin iştirakçıları tərəfindən "Yaşıl dəhliz" sistemindən daimi istifadə etmək hüququ alınması üçün xüsusi qaydaların tətbiqinə başlanılıb, bu hüquqların müvəqqəti dayandırılması, ləğv edilməsi və bərpası imkanları yaradılıb;***

***- gömrük nəzarəti və gömrük rəsmiləşdirməsinin daha sürətlə və daha şəffaf həyata keçirilməsi üçün hər cür şərait yaradılıb, fiziki gömrük yoxlamaları minimuma endirilib;***

***- xırda iddialar üçün meyarlar barəsində sadələşdirilmiş prosedurlar qəbul edilib. Məhkəmə tənzimləməsi standartları yaxşılaşdırılıb. "Vasitəçilik haqqında" Qanun qəbul edilib, müvafiq inzibati qaydalar işlənib hazırlanıb. Şikayətlərlə bağlı məhkəmə araşdırmalarının elektron xidmətinin tətbiq edilməsi sahəsində qanunvericilik təkmilləşdirilib;***

***- hərracların keçirilməsi vaxtı azaldılıb;***

***- beynəlxalq standartlara uyğun olaraq dövlət satınalmaları üçün qanunvericilik bazası təkmilləşdirilib (üç milyon dollara qədər dövlət satınalmaları yalnız elektron şəkildə həyata keçirilir). Ən müasir standartlar əsasında dövlət satınalmalarının vahid internet portalı və elektron satınalmalar modeli yaradılıb. Dövlət satınalmalarının həyata keçirilməsi prosedurları sadələşdirilib və tamamilə kompüterləşdirilib. Bundan əlavə, səmərəli idarəetmə sistemi yaradılıb. Dövlət satınalmalarının həyata keçirilməsi proseduru üçün zəruri vaxt 53 gündən 31 günə, tender təklifinin həcmi 5 faizdən 1 faizə endirilib.***

Prezident İlham Əliyevin iqtisadi islahatlar paketi çərçivəsində sahibkarlığın inkişafı ilə bağlı verdiyi qərarlar strateji xarakter daşımaqla yanaşı, son bir ildə ölkədə özəl sektorun inkişafında yeni dövrün başlanğıcına zəmin yaradıb. Həm sahibkarlığın inkişafı, həm də biznes və investisiya mühitinin yaxşılaşdırılması ilə bağlı reallaşdırılan sistemli tədbirlər beynəlxalq iqtisadi təşkilatların hazırladıqları hesabatlarda da öz əksini tapıb. Məsələn, Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan öz mövqeyini 32 pillə yaxşılaşdıraraq 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb. Hesabatda ölkəmiz 10 göstəricidən 8-i üzrə irəliləyib. "Biznesə başlama" göstəricisi üzrə 9 pillə irəliləyərək 9-cu pilləyə, "Kiçik investorların maraqlarının qorunması" göstəricisi üzrə isə 8 pillə irəliləyərək 2-ci pilləyə qalxıb.

## *Enerji təhlükəsizliyi prioritet istiqamətdir*

Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 16 il ərzində elektrik enerjisi istehsalını gücləndirmək məqsədilə ciddi islahatlar həyata keçirilib, bu sahə ilə bağlı yeni obyektlər istifadəyə verilib. İnfrastrukturun müasir tələblər əsasında yenidən qurulması diqqət mərkəzində saxlanılıb. Bütün bunların nəticəsində isə sözügedən sahədə yüksək göstəricilərə nail olunub.

Hazırda respublikamızda reallaşdırılan genişmiqyaslı iqtisadi islahatlar, çoxsaylı sənaye və aqrar-sənaye obyektlərinin yaradılması elektrik enerjisinə və ehtiyat generasiya güclərinə tələbatı daha da artırıb.

Prezident İlham Əliyevin rəhbərliyi ilə cari il ərzində ölkəmizin energetika sisteminin əsaslı şəkildə modernləşdirilməsi, "itirilmiş" generasiya güclərinin bərpası məqsədilə kompleks tədbirlər həyata keçirilib:

***- "Azərenerji" ASC tərəfindən energetika sisteminin əsaslı şəkildə modernləşdirilməsi məqsədilə hazırlanan "Reabilitasiya proqramı" uğurla yerinə yetirilib;***

***- "Cənub", "Şimal" və "Bakı" elektrik stansiyalarında mövcud gücün daha da artırılması məqsədilə yenidənqurma işləri aparılıb;***

***- Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan "Azərbaycan" İES tamamilə yenidən qurulub, turbinlər, generatorlar, rele mühafizə sistemi, sexlər, yarımstansiyalar, 500 və 330 kilovoltluq hava xətləri, əks qəza avtomatikası müasirləşdirilib. Yanğınsöndürmə, inzibati bina, idarəetmə mərkəzi tikilib;***

***- "Azərbaycan" İES-in 6 saylı enerji blokunda kompleks təmir sayəsində 60 meqavat yük məhdudiyyəti aradan qaldırılıb;***

***- Bakı şəhərində, habelə regionlarda infrastruktur və sahibkarlıq obyektlərinin elektrik enerjisi ilə təchizatında mühüm rol oynayan "Bakı", "Astara", "Şəki", "Xaçmaz", "Şahdağ" və "Səngəçal" modul tipli elektrik stansiyalarında itirilmiş gücün bərpası istiqamətində işlər aparılıb. Bir çox elektrik stansiyaları və yarımstansiyaların 500, 330, 320, 110 kilovoltluq hava xətləri, o cümlədən yarımstansiyalar yenidən qurulub.***

Göründüyü kimi, ölkə rəhbərliyi tərəfindən müəyyənləşdirilən strateji vəzifələrə müvafiq olaraq "Azərenerji" ASC ötən illər ərzində istehlakçıların etibarlı və dayanıqlı elektrik enerjisi ilə təchizatı istiqamətində sistemli iş aparıb. Son illərdə yeni generasiya güclərinin yaradılması hesabına Azərbaycan elektrik enerjisi sahəsində idxalçıdan ixracatçıya çevrilib, Bakı şəhərinin və regionların fasiləsiz, dayanıqlı elektrik enerjisi ilə təchizatındakı fasilələr aradan qaldırılıb.

**"Xalq qəzeti"**